



KARL MARKS

XVIII ƏSR DİPLOMATİYA TARİXİNİN GERÇƏKLƏRİ

Tərcüməçi:
Araz Gündüz

QANUN NƏŞRİYYATI



KARL MARX

REVELATIONS OF THE DIPLOMATIC HISTORY OF THE 18TH CENTURY

"XVIII əsr diplomatiya tarixinin gerçəkləri" əsəri 1856-1857-ci illərdə yazılıb. Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin arxiv sənədlərini araşdıran müəllif Rusiya dövlətinin XVIII əsrdə şiddətlənən təcavüzkar siyasətinin irəliləməsində ingilis hökumət dairələrinin müstəsna rolu olduğunu tutarlı sənədli dəlillərlə sübut edir. Daha sonra müəllif Rusiya xalqının və dövlətçiliyinin ən qədim dövrlərdən müasiri olduğu çağa qədərki tarixini təhlil etməklə rus xalqı və dövlətçiliyi barədə çox sərt və kəskin ifadələr işlədir. Ardınca XVIII əsr ingilis müəlliflərinin hakimiyyətə müxalif olan siyasi baxışları gözdən keçirilir və Rusiyanın Avropada, xüsusilə də Baltikyanı ərazilərdə gerçəkləşdirdiyi işğalların Avropa üçün çox təhlükəli bir vəziyyət yaratdığı fikri irəli sürülür. Maraqlıdır ki, SSRİ dövründə əsərləri külliyyatı dəfələrlə və çox böyük tirajla çap edilən K.Marksın bu kiçik həcmli əsərinin üzərindən sükutla keçmişlər. Çünki Marksın gəldiyi nəticələr sovet bürokratik aparatının vətəndaşların beyninə yeritməyə çalışdığı saxtalaşdırılmış tarix kitabları ilə daban-dabana zidd idi. Beləliklə, K.Marksın çıxardığı nəticələr öz üzərinə "böyük qardaş" statusu götürmüş xalqın əsl tarixinin təqdim edilən rəsmi tarix kitablarında yazılanlardan çox fərqli olduğunu göstərməklə sovet təbliğat maşınının işinə güclü ziyan vurmaq gücündə idi. K.Marksın təqdim edilən əsəri, əslində, bu günümüz üçün də çox aktual olmaqla yanaşı, ən müxtəlif fəlakət ssenariləri ilə üzləşən çağdaş dünyamızdakı bir sıra beynəlxalq münaqişələrin və qanlı hadisələrin mahiyyətini anlamaq baxımından da çox yaxşı bir bələdçi rolunu oynaya bilər.

MÜNDƏRİCAT

I Fəsil 7

II Fəsil 37

III Fəsil 91

IV Fəsil 138

V Fəsil 170

Birinci fəsil

№ 1. Cənab Rondodan Horasio Volpola [1]

Peterburq, 17 avqust, 1736-cı il[2]... "Türkləri güzəştə getməyə və bununla bağlı ilk addımı atmağa inandıra bilməyi bütün qəlbimlə arzu edirəm... çünki göründüyü kimi, buradakı saray bu, baş verməyənədək özünü karlığa vurmağı qərara alıb, həmçinin ruslara qarşı həmişə son dərəcə böyük nifrətlə yanaşan, çariça və onun indiki nazirlərinin həzm edə bilmədikləri

[1] Rondo Klodius – 1731-1739-cu illərdə İngiltərənin Peterburqda səlahiyyətli səfiri. Horasio Volpol – 1734-1739-cu illərdə İngiltərənin Hollandiyada fövqəladə və səlahiyyətli səfiri.

[2] Bu məktub 1735-ci ildə rus imperatriçası Anna tərəfindən Türkiyəyə qarşı başlanmış olan müharibə dövrünə aiddir. Sankt-Peterburqda olan ingilis diplomatı Rusiyanı türklərlə sülh bağlamağa təşviq etməsi ilə əlaqədar apardığı danışıqlar barədə məlumat verir.

Portanı (Osmanlı dövlətini) var gücləri ilə alçaltmağa çalışır. Ser Everard Foknerə və cənab Kalkuna (birinci İngiltərənin, ikinci isə Hollandiyanın Konstantinopoldakı səfiridir) türklərin xoş niyyəti barədə verdikləri məlumata görə minnətdar olmaqdansa, qraf Osterman Osmanlı dövlətinin səmimiyyətinə inanmaqdan imtina edir və görünür, İngiltərə kralının, Baş Ştatların buyuruğu, həmçinin böyük vəzir Mehmed Silahdarın razılığı olmadan və Müqəddəs Roma imperatoru VI Karlın Konstantinopoldakı səfiri Talmanla məsləhətləşmədən, səfirlərin belə bir məktub yazmalarından bərk təəccüblənmişdir. Mən qraf Bironu və qraf Ostermanı böyük vəzirin krala yazdığı iki məktubla tanış etdim və eyni zamanda bu centlmenlərə dedim ki, məktublarda rus sarayı barədə bir sıra kəskin ifadələr olduğundan, onları yalnız özlərinin təkidli xahişlərinə görə tanış olmaları üçün verirəm. Qraf Biron məktublardakı kəskin ifadələrə əhəmiyyət vermədiklərini dedi, çünki artıq türklərin bu cür münasibətinə alışıblar. Zati-alilərindən bu məktubları gördükləri barədə Osmanlı dövlətinə xəbər verməmələrini xahiş etdim, çünki bu, vəziyyətin yaxşılaşmasına deyil, daha da pisləşməsinə səbəb olardı...".

№ 2. Ser Corc Makkartnidən qraf Sandviçə[1]

Sankt-Peterburq, 1 (12) mart, 1765-ci il. "Tam məxfi"[2] ...Dünən cənab Panin[3], vitse-kansler və Danimarka elçisi cənab Osten, birlikdə, Rusiya və Kopenhagen sarayları arasındakı müttəfiqlik barədə müqaviləni imzaladılar. Müqavilənin maddələrindən birinə görə, Türkiyə ilə müharibə **casus foederis** (latınca "müttəfiqlik fəaliyyəti", yəni müttəfiqlik öhdəliklərinin qüvvəyə minməsi məqamı deməkdir) kimi təsbit olunub və bu nə vaxt baş versə, Da-

[1] Qraf Corc Makkartni – 1764-1767-ci illərdə ingiltərənin Rusiyada fövqəladə səfiri. Qraf Con Sandviç – ingilis dövlət xadimi, 1748-1782-ci illər ərzində, fasilələrlə, admirallığın birinci lordu vəzifəsini icra edib.

[2] İngiltərə o vaxt Rusiya ilə Ticarət Müqaviləsi barədə danışıqlar aparırdı.

[3] İndiyə qədər tarixçilər arasında belə bir mübahisə qalmaqdadır: Panin Prussiya imperatoru II Fridrixə pul qarşılığında xidmət edibmi? Əgər belədirsə, o bunu çariça Yekaterinadan gizli, yoxsa onun əmri ilə edib? Şübhə yoxdur ki, Yekaterina rus nazirlərə görünüş xatirinə xarici sarayların maraqlarına xidmət etməyə icazə verib ki, onlar bu sarayları Rusiyanın mənafeyinə uyğun hərəkət etməyə sövq edə bilsinlər. Paninə gəlincə, bu, indiyədək çap edilməmiş həqiqi sənədlə təsdiq olunur. Bu sənəd sübut edir ki, II Fridrixə xidmət etməyə razılaşan Panin öz şərəfi, varidatı və həyatı ilə risk edərək bu xidməti davam etdirməyə məcbur olmuşdu.

nimarka Rusiyaya, hər rüb üçün, bərabər hissələrə bölünməklə, illik 500.000 rubl subsidiya (qaytarılmayan yardım) ödəməyi öhdəsinə götürür. Müqavilənin ən məxfi maddəsində Danimarka Fransa ilə bütün əlaqələrdən imtina etməyi öhdəsinə götürür, ancaq bundan qabaq fransız sarayının özünə olan borclarını almaq üçün qısa bir müddət üçün bu əlaqələrin davam etməsinə razılıq verilməsini istəyir. Hər halda, o gecikmədən Rusiya və İsveçin bütün niyyətlərini müdafiə etməli, bu krallıqdakı fəaliyyətini tamamilə Rusiya ilə razılaşdırmalı, ancaq bunu gizli saxlamalıdır. Ola bilsin, məni yanıltmışlar, ya da cənab Qross[1] ona verilmiş təlimatı düzgün anlamayaraq Zati-alilərinizə demişdir ki, Rusiya yaxasını kənara çəkməklə, İsveçdəki bütün xərclərinin ağırlığını İngiltərənin üzərinə qoymuşdur. Rus sarayının bu xərclərin əsas hissəsini bizim ödəməmizi nə dərəcədə istəməsindən asılı olmayaraq, mənim inamıma görə, o Stokholmda aparıcı rol oynamağı qarşısına əsas məqsəd olaraq qoymuşdur. İngiltərə və Danimarkanın köməyi ilə Fransanın İsveçdəki təsirini bütünlüklə aradan qaldırmaq Rusiyanın niyyəti və ən qızğın istəyidir. Əlbəttə, bu, böyük xərc tələb edir;

[1] Qross Rusiyanın Londondakı diplomatik elçisi olmuşdur.